


# ONLARIN SUSDURULMASINA İMKAN VERMƏYİN

## SƏSLƏRINI UCALTDIQLARI ÜÇÜN MƏHBUS EDILMIŞ AZƏRBAYCAN FƏALLARI

AMNESTY INTERNATIONAL

**Hakimiyyətin sistematik təqib kampaniyasına baxmayaraq, gənc Azərbaycan fəalları özlərinin ifadə və sərbəst toplaşma azadlığı hüquqlarına sahiblənmək üçün yollar axtarmaq əzmindədirlər. Hökumətin fərqli düşüncə üzərinə zorakılığı şəraitində internet Azərbaycanda azad fikir ifadəsi üçün son sığınacağa çevrilmişdir. Gənc fəalların kiçik, lakin əzmkar qrupu demokratik islahatlara və hökumətin başdan aşan korrupsiyasına son qoyulması üçün çağırışlarını video-bloqlar, postinqlər və twitter vasitəsilə ifadə edirlər.**

Azərbaycan hakimiyyəti ixtiyarında olan bütün vasitələrdən bu fəalları gözdən salmaq və qorxutmaq üçün istifadə edir. Dövlət televiziyası Facebook istifadəçilərini "ruhi xəstə" kimi təqdim edən müsahibələr və sənədli filmlər yayınlamışdır. Dövlət tərəfindən nəzarət olunan universitetlər mütəmadi olaraq tələbələri yaranmış vəziyyətin tənqidindən uzaq durmağa çağırır və əks halda xaric olunacaqları barədə xəbərdarlıqlar edir.

2011-ci ildə avtoritar və korrupsiyalaşmış hökumətin əleyhinə danışmağa cəhd göstərdiyinə görə qondarma ittihamlarla məsuliyyətə cəlb edilən şəxslərin sayı heyrətamiz şəkildə artmışdır. Bu adamların böyük əksəriyyəti ədalətsiz məhkəmələrin ardınca məhkum edilmiş və onlara qarşı uzunmüddətli həbsxana cəzası hökmləri çıxarılmışdır.

Qondarma ittihamlardan əlavə hakimiyyət fərqli mövqeləri cəzalandırmaq üçün Azərbaycan qanunvericiliyindəki qüsurlardan tam istifadə edir. Azərbaycanda "Azadlıq" sözünü küçədə ucadan qışqırsan, 10 sutkalıq həbs cəzası ala bilərsən. Başqaları da bu sözü sənə qoşulub qışqırsalar, bu səni "ictimai asayişi pozan hərəkətlərin təşkili və bu hərəkətlərdə iştiraka görə" ittihamı ilə üç il müddətinədək dəmir barmaqlıqlar arxasına göndərə bilər.

Rejimin Azərbaycanlıların (ölkədə və xaricdə) internet vasitəsilə ifadə olunan və Azərbaycan hökumətinə zidd olan fikirlərini boğmaq niyyəti Azərbaycanda azad fikir ifadəsinin məkanını daha da daraldır. Hökumət gənc fəalları hədəfləməklə ən çox açıq danışanların aqibətini başqalarını açıq danışmaqdan çəkindirmək üçün ibrət dərsinə çevirmək üsulundan getdikcə daha çox istifadə edir.




**Cabbar Savalan 2011-ci ilin İyulunda məhkəmə dinləməsi zamanı barmaqlıqlar arxasında**

## CABBAR SAVALAN: HƏDDINDƏN ARTIQ UZAĞA GEDƏN INTERNET POSTU

19 yaşlı Cabbar Savalan Facebook fəaliyyətinə görə həbs olunmuşdur. O, Sumqayıt Universitetinin tarix fakültəsində oxuyurdu və hökumət əleyhinə mitinq və nümayişlərdə iştirak etməklə Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) gənclər qanadının fəal üzvü idi.

2011-ci il Yanvarın əvvəlində Cabbar Facebook vasitəsilə Türkiyə qəzetlərindən birində dərc olunmuş məqaləni Facebook vasitəsilə post edib. Bu məqalədə Prezident İlham Əliyev korrupsiyaçı və qumarbaz kimi təqdim olunurdu. Cabbar həmçinin Yanvarın 20-də keçirilən anti-hökumət etirazında iştirak etmişdi.

Yaxın Şərq və Şimali Afrikada baş verən etirazlardan ilhamlanan Cabbar Fevralın 4-də, Facebookda "Qəzəb Günü"nə çağıran post dərc edib. Ertəsi gün o, ailəsinə bildirib ki, naməlum şəxslər tərəfindən izlənir.

Fevralın 5-də axşam o, AXCP-nin iclasından qayıdarkən tutulub. Polis zabitləri onu heç bir izahat vermədən və hüquqlarını izah etmədən tutub saxlayıblar.



© Amnesty International

**Polis 12 Mart 2011-ci ildə keçirilmiş dinc nümayişdə etirazçıların üstünə yeriyir.**

Onun qollarına qandal vurulmuş, polis məntəqəsində üstündə axtarış aparılmazdan əvvəl maşına basılmış və oradan zorakı şəkildə çıxarılmışdır. Sonradan polis onun pencəyinin yan cibindən 0,74 qram marixuana tapdığını iddia etmişdir.

Cabbar Savalan vəkili ilə görüşünə imkan verilmədən həftəsonu ərzində (Şənbə gecəsi və Bazar günü Fevralın 6-da) dindirilmişdir. Nəhayət o, Bazar Ertəsi Fevralın 7-də vəkili ilə görüşəndə ona deyib ki, polis onu etiraf ifadəsini imzalayanadək sillələmiş və hədələmişdir. O marixuana gəzdirdiyinə dair iddiaları rədd etmiş və bildirmişdir ki, polis marixuananı onun cibinə o, polis maşınına oturdularkən qoyub.

*“Mən sənin harada yaşadığını bilirəm, gör sənin başına nə oyun açacağam”.*

Fevralın 7-də Sumqayıt Rayon Məhkəməsi Cabar Savalını məhkəməyə qədər iki aylıq həbs cəzasına məhkum etmişdir. Həbsdən sonra onun qan analizinin narkotik maddə izlərini göstərməməsinə baxmayaraq, Mayın 4-də ona qarşı qanunsuz narkotik maddələrin şəxsi istifadə üçün saxlanması ittihamı irəli sürülmüşdür. Məhkəmə onu daha 26 ay müddətinə azadlıqdan məhrum etmək barədə hökm çıxarmışdır.

Cibindən guya narkotik maddə çıxmasına dair ittihamdan başqa onun məhkum edilməsi üçün əsas kimi onun vəkili ilə görüşmədən imzaladığı və sonradan imtina etdiyi etiraf ifadəsi götürülmüşdür.

Məhkəmədən sonra Cabbarı ilkin olaraq dindirmiş polis zabiti onun vəkili Anar Qasımova yaxınlaşaraq onu hədələmişdir. Zabit ona demişdir ki, vəkilin yekun çıxışı onun xoşuna gəlməyib, beləki, bu çıxışda dövlət günahlandırılıb.  Bundan sonra polis əlavə edib: “Mən sənin harada yaşadığını bilirəm, gör sənin başına nə oyun açacağam”. İndi vəkil narahatdır ki, onun da üstünə nə isə qoya bilərlər.

Cabbar Savalanın ailəsi əmindir ki, o narkotik maddələrdən istifadə tarixçəsinə malik deyil. Bunu onun dostları və qrup yoldaşları da təsdiq edirlər. Onlardan biri Amnesty İnternationala bildirmişdir: “Cabbar nə siqaret çəkir, nə də spirtli içki içir, o heç cür narkotik istifadəçisi ola bilməz”.

Cabbar ona qarşı irəli sürülmüş ittihamlardan İyul ayında appelyasiya müraciəti etsə də, ərizəsi rədd edilib. Appelyasiya dinləmələri zamanı Sumqayıt Şəhər Polis İdarəsinin rəhbəri ifadə vermək üçün çağırılıb. O Cabbarın guya narkotik maddə saxladığına dair məlumatı ötürmüş şəxsin adını açıqlamaqdan və bu şəxsin Cabbarda narkotik olmasını necə bilməsinə dair məlumat verməkdən imtina edib.

Özünün məhkəmədəki son sözündə Cabbar bəyan etmişdir: “Dörd divar arasında yaşamaq mənim üçün çox da çətin deyil. Onsuz da bu ölkədə, demək olar ki, azad olan yer yoxdur.”

Cabbar bu şəkildə ittiham edilib məhkum olunmuş yeganə şəxs deyildir. Narkotiklər hökumətin Eynulla Fətullayev və Sakit Zahidov kimi başqa tanınmış tənqidçilərinin də üstündən “tapılıb”.

2009-cu ilin Dekabrında həbsxana keşikçiləri həbs edilmiş jurnalist Eynulla Fətullayevin üstündən heroin tapıldığnı iddia etmişlər. Beləliklə, Avropa İnsan Haqları Məhkəməsinin onun dərhal azadlığa buraxılması barədə qərarından az sonra o, 2010-cu ilin İyulunda yenidən ittiham olunaraq iki il yarım müddətinə azadlıqdan məhrum edilib.

2006-cı ildə hökumətin tənqidçilərindən daha bir tanınmış jurnalist, Sakit Zahidovun üstündən heroin tapıldığı iddia olunaraq üç il müddətinə azadlıqdan məhrum edilmişdir. O bildirir ki, heroini onun cibinə qoyublar.




© Amnesty International

Emin Milli və Adnan Hacızadə 2009-cu ilin İyulunda hücuma məruz qaldıqları restoranın yanında.

# ADNAN HACIZADƏ VƏ EMIN MILLI YUMOR HISSI OLMAYAN HÖKUMƏT

2009-cu ilin 8 İyulunda həmin vaxt müvafiq olaraq 26 və 30 yaşlarında olan gənc fəallar və blogerlər Adnan Hacızadə və Emin Milli restoranda iki naməlum şəxs tərəfindən hücuma məruz qalmışlar. Onlar basqından dərhal sonra polisə şikayət etmək istəmiş, lakin əvəzində özləri xuliqanlıq ittihamı ilə həbs edilmişlər.

İki fəal Azərbaycandakı vəziyyət barədə məlumatları yaymaq üçün YouTube, Facebook, Twitter kimi şəbəkələmə alətlərindən istifadə etmişlər. Emin Milli siyasət barədə müzakirələr aparan internet icması – Alumni Networkün həmtəsisçisidir. O həmçinin nəticə etibarilə İlham Əliyevə və onun xələflərinə davamlı şəkildə təkrar seçilmək imkanı yaratmış Konstitusiya dəyişikliyini – prezidentlik müddətini ləğv edən dəyişikliyi tənqid etmişdir. Adnan Hacızadə isə OL! kimi tanınan gənclər hərəkatının həmtəsisçisidir. Bu təşkilat qeyri-zorakılığı və dözümlülüyü təbliğ edir.

2009-cu ilin 28 İyununda OL!təşkilatı YouTube saytına Azərbaycan hökumətini tənqid edən satirik video postlayıb. Videoda eşşəyin keçirdiyi parodik mətbuat konfransı təsvir edilir.
Bu video internetə elə bir vaxtda yerləşdirilib ki, həmin vaxt Azərbaycan hökumətinin guya pərdələnmiş korrupsiya və ya ictimai fondların oğurlanmasını həyata keçirmək məqsədilə minlərlə dollar xərcləyərək Almaniyadan eşşək almaq üçün bağladığı müqavilə barədə iddialar dolaşırdı. Burada eşşəklərin alınması səbəbləri, QHT-lərin fəaliyyətini məhdudlaşdıran qanunvericilik aktının qəbulu və hökumətin insan haqlarına barmaqarası baxması kimi məsələlər qoyulur.

Bundan cəmi bir həftə sonra Adnan Hacızadə və Emin Milli beş başqa fəalla birlikdə Bakı restoranlarından birində şam edirmişlər. Şahidlərin dediyinə görə, onlara iki cüssəli adam yaxınlaşaraq söyüş söyüb və nə barədə danışdıqlarını sorğu-sual edib. Emin Milli bu danışılanların bu iki şəxsə dəxli olmadığını deyəndə isə,




onlardan biri başı ilə Emin Milliyə zərbə endirib və Emin Milli döşəməyə yıxılıb. Eyni şəxs daha sonra Adnan Hacızadəyə zərbə endirərək onu da yerə yıxıb. Həmin iki şəxsdən biri yerə yıxılmış Adnan Hacızadə və Emin Millini təpiklə döyən birinci təcavüzkara imkan yaratmaq üçün başqa fəalların qarşısını stolla kəsib. İnsident cəmi iki dəqiqə çəkib və qarşısı restoranın işçiləri tərəfindən alınıb.

Hadisədən dərhal sonra Adnan Hacızadə və Emin Milli şikayət etmək üçün Səbail Rayon Polis İdarəsinə getmişlər. Onları zərərçəkən kimi qəbul edərək müvafiq tibbi yardım göstərilməsini təşkil etmək əvəzinə, polis fəallarla şübhəli şəxs kimi rəftar edərək onları beş saat dindirmiş və axırda onları xuliqanlıq itttihamı ilə həbs etmişdir. Onlara vəkilləri ilə əlaqə saxlamaq imkanı

***"Mənim azadlığım sərt şəkildə məhdudlaşdırılıb və mən düşünmürəm ki, bu ədalətli hərəkətdir"***

Emin Milli

yaratmamış və əvəzində hakimiyyyətin təyin etdiyi vəkili vermişlər. Onlar məhkəməyədək həbsdə saxlanmış və bu müddətdə ittihamın üzərinə "ciddi olmayan bədən xəsarəti yetirmək" maddəsi əlavə olunmuşdur.

İstintaqın gedişində polis və müstəntiqlər şahidləri dindirməmiş, və restoranda baş vermiş hadisənin görüntüləri ola biləcək təhlükəsizlik kamerasının videosunu əldə etməmişlər. Onlar həmçinin səhvə yol verərək məhkəməyə Adnan Hacızadənin guya işsiz olduğu və əvvəllər məhkum olunduğu barədə doğru olmayan məlumat təqdim etmişlər.

Müdafiə tərəfinin məlumatına görə məhkəmə Emin Milli və Adnan Hacızadəyə yetirilmiş bədən xəsarətlərini əks etdirən fotoların, restoranın təhlükəsizlik kamerasının görüntülərinin və insidentin mobil telefonla çəkilmiş videosunun nümayiş etdirilməsinə icazə verməmiş və bunun səbəbini izah etməmişdir. 2009-cu il Noyabrın 11-də Adnan Hacızadə və Emil Milli xuliqanlıqda və kiçik bədən xəsarəti yetirməkdə ittiham edilərək, müvafiq olaraq iki və iki il yarım həbs cəzasına məhkum edilmişlər.

2010-cu ilin Noyabrında 16 ay həbsxanada saxlandıqdan sonra Adnan Hacızadə və Emin Milli zaminə buraxılmışlar. Onların gözlənilməz azadedilmələrindən əvvəl Amnesty İnternational da daxil olmaqla bir neçə beynəlxalq insan haqları təşkilatı geniş beynəlxalq kampaniya aparmış, əsas etibarilə Birləşmiş Ştatlar tərəfindən diplomatik təzyiq göstərilmişdir.

Emin Milli və Adnan Hacızadə 2010-cu ildə məhkəmə dinləməsi zamanı barmaqlıqlar arxasında.

***"Düşünürəm ki, Azərbaycan gəncliyinin etiraz haqqı vardır və onlar etiraz etmək istəyirlərsə, bunu etməldirlər, istər internetdə olsun, və ya qeyri-internetdə, SMS vasitəsilə və ya küçələrdə"***

Adnan Hacızadə




Leyla Mustafayeva 2011-ci ilin Martında Amnesty İnternationala müsahibə verərkən.

*"O çox aqressiv şəkildə məni təhqir edir, kimliyimi tələb edirdi. Mən ona qəzetdən mənə verilmiş vəsiqəni təqdim etdim. O qəzəbli şəkildə mənim sənədlərimi əzib qarın üstünə atdı. Mənim müqavimətimə baxmayaraq zorla fotoapparatımı cibimdən çıxarmağa çalışdı."*

Leyla Mustafayeva

## LEYLA MUSTAFAYEVA: BIR FOTOŞƏKLIN QIYMƏTI

2010-cu ilin Fevral ayında həmin vaxt 27 yaşı olan qəzet müxbiri Leyla Mustafayeva bazar və dəyişən qiymətlər barədə məqalə hazırlamaq üçün Bakının Nizami rayonundakı bazara baş çəkib. Leyla bazara daxil olarkən bir polisin bir ticarətçi qadını saçlarından sürükləyərək çıxarmağa çalışdığının şahidi olub.

Leyla hadisənin fotolarını çəkməyə başlayıb, lakin bu zaman bir polis zabitinin öz həmkarları ilə onu mühasirəyə aldıqlarını hiss edib. Onlar Leylanın kimliyini öyrənmək istəyiblər:

"O çox aqressiv şəkildə məni təhqir edir, kimliyimi tələb edirdi. Mən ona qəzetdən mənə verilmiş vəsiqəni təqdim etdim. O qəzəbli şəkildə mənim sənədlərimi əzib qarın üstünə atdı. Mənim müqavimətimə baxmayaraq zorla fotoapparatımı cibimdən çıxarmağa çalışdı. "

Fotokamerasını qorumağa çalışarkən Leylanın sağ əli zədələnmişdir, lakin polis jurnalisti polis məntəqəsinə aparmazdan əvvəl onun fotokamerası müsadirə edilmişdir. O orada bir saat saxlanmış və ondan polis əməliyyatına müdaxilə etdiyini etiraf edən izahat yazmaq tələb edilmişdir. O bu izahatı yazmaqdan imtina etmişdir. Onun həbsi barədə xəbəri alan qəzet redaksiyası Daxili İşlər Nazirliyinə şikayət etmiş, nazirlik polis məntəqəsi ilə əlaqə saxladıqdan sonra jurnalist azad edilmişdir.

Leylanın fotoapparatı qaytarılandan sonra məlum olmuşdur ki, bütün şəkillər yaddaşdan silinib. Əlindən aldığı xəsarətə görə jurnalist bir həftə yazmaq qabilliyyətini itirmişdir. Leyla onunla edilmiş rəftara görə şikayət yazmış, Daxili İşlər Nazirliyinin müstəntiqi ərizəni qəbul etmiş, lakin 2011-ci ilin Oktyabrına olan məlumata görə ona indiyədək heç bir məlumat verilməmişdir.

"Yaxşı məlumdur ki, ifadə azadlığına aid işlər məhkəməyə gedəndə, siyasi motivli qərarlar qəbul edilir və bizlərə lazımi diqqət yetilirmir.

"İfadə azadlığı [mühit] bu ölkədə olduqca pisdir, istər jurnalistika sahəsində olsun, istərsə də siyasət. Jurnalistlər tez-tez təqiblərə və hücumlara məruz qalırlar."

## ELMIN BƏDƏLOV: ARZUOLUNMAZ TƏLƏBƏ-JURNALIST

2006-cı ildə, o zaman 17 yaşı olan Elmin Bədəlov neft mühəndisi olmaq arzusu ilə Bakıdakı nüfuzlu Dövlət Neft Akademiyasına daxil oldu. Elmin universitetdəki korrupsiya hallarından məyus olanadək üç il yarım müddətində uğurlu bir tələbə idi. O bu hallar barədə müxalif Yeni Müsavat qəzeti üçün əsasən imzasız, bəzən isə öz adı ilə məqalələr yazırdı.

Məqalələrdən birində Dövlət Neft Akademiyasının rektoru Siyavuş Qarayevin universitet yataqxanasındakı otaqları şəxsi maraqları üçün kirayəyə verməsinin təfərrüatlarından bəhs edilirdi. İkinci məqalədə isə tələbələrin ifadə azadlığı üzərinə qoyulmuş məhdudiyyətlər tənqid olunur və bu halın tələbələrdən rüşvət tələb edən müəllimlərlə əlaqəsi açıqlanırdı.

Elmin Amnesty İnternationala bildirmişdir ki, bu məqalələrin dərcindən sonra o, fakültə dekanının yanına çağırılıb: "Məni bu yazıları göstərişlə yazmaqda və muzdlu olmaqda ittham etdilər. Dekan məni təhqiramiz adlarla çağırırdı. Sonra isə mənə dedi ki, düz iş görmürəm və araqarışdıranam".

Bu görüşdən sonra Elmin öz məqalələrinə görə universitetdə sıxışdırıldığı barədə mətbuata məlumat verib. Elmin Amnesty İnternationala bildirib ki, daha sonra ona qarşı təşkil olunmuş təqib kampaniyası başlanıb: "Onlar mənim tələbə yoldaşlarımı incidir və onlara xəbərdarlıq edirdilər ki, mənimlə dostluğu davam etdirsələr, universitetdən xaric olunacaqlar".

Daha sonra isə Elminin gümanına görə öyrədilmiş bir tələbə onunla münaqişəyə cəhd edib. Başqa bir tələbənin başına gəlmiş hadisəni (2009-cu ilin Fevralında öz universiteti barədə tənqidi yazı yazmış Pərviz Əzəmov qanun-qaydanı pozduğuna görə universitetdən qovulub) yadına salan Elmin təxribatçıdan yayına bilib.

Universitet onun kurs işlərini “qeyri-kafi” qiymətləndirməyə başlayıb. Müəllimin tərifini və yüksək qiymətini almış bir kurs işinin qiymətini isə dekan aşağı salıb və Elmin, növbəti imtahan zamanı imtahan zalından çıxarılıb. Ona son imtahanda da “qeyri-kafi” qiymət verilib və 2010-cu ilin 19 Yanvarında Elmin qeyri-qənaətbəxş oxuduğuna görə universitetdən qovulub.

Elmin appelyasiya şikayəti verərək bildirib ki, ona verilən yekun qiymətlər onun kurs işinin real qiymətini əks etdirmir. Ona bildirilib ki, yalnız son imtahan barədə appelyasiya verə bilər. Elmin bildirib ki, ona qiymət vermiş müəllim ona qarşı qərəzlidir. Universitet təkrar qiymətləndirmə üçün ona icazə kağızını ertəsi gün verib, lakin buna baxmayaraq işi yenidən həmin müəllim yoxlayıb və yenidən “qeyri-kafi” yazıb və qovulma barədə qərar qüvvədə saxlanıb.

Elmin Bədəlov hazırda Yeni Müsavat qəzetinin ştatlı müxbiridir, lakin onun neft mühəndisi olmaq arzusu puç olub.

## BƏXTIYAR HACIYEV: DÜŞÜNDÜKLƏRINƏ GÖRƏ POLIS TƏRƏFINDƏN SAXLANIB

29 yaşlı müxalifət fəalı Bəxtiyar Hacıyev ilk dəfə 18 Noyabr 2010-cu il tarixində tutularaq saxlanılıb və orduya göndəriləcəyi ilə hədələnib. O 7 Noyabrda keçiriləcək parlament seçkilərində müxalifətdən namizəd idi və sonralar bir sıra seçki pozuntularını ifşa etmişdi.

Lakin o, deputatlığa namizəd kimi orduya çağırışdan hələ də azad olduğunu ustalıqla ortaya qoya bildi və bu çağırış məktubunun etibarsızlığını sübut etdi və Bəxtiyarı azad etdilər.

Onun seçki immuniteti bitdikdən sonra, 2011-ci ilin 24 Yanvarında Bəxtiyar



© Amnesty International

**Elmin Bədəlov Dövlət Neft Akademiyasının qarşısında. O Universitetdəki korrupsiyanı ifşa edən məqalə yazdıqdan sonra oradan xaric edilmişdir.**







Hacıyev yenidən saxlandı və ona qarşı hərbi xidmətdən yayınma ittihamı irəli sürüldü. Ona yeni çağırış vərəqi tutulub saxlandığı müddətdə verildi.

Bəxtiyar dərhal ona alternativ hərbi xidmət imkanı verilməsini xahiş etdi. Azərbaycanın Hərbi Çağırış Haqqında Qanun Layihəsinin 12-ci maddəsinə əsasən onun müraciətinə Çağırış Komissiyasında baxılmalı idi. Lakin bu müraciətə baxmaq əvəzinə ona qarşı hüquqlarını pozmaqla ittiham irəli sürüldü, lakin o yaşadığı Gəncə şəhərini tərk etməmək və gündəlik qaydada polisə məlumat vermək şərtilə azad edildi.




**Gənclərin təmsilçisi Bəxtiyar Hacıyev 2005-ci ildə Nyu Yorkda BMT Baş Assambleyasının 60 –cı sessiyasında çıxış edərkən.**

Bəxtiyarın ilkin həbsinin vaxtı və faktiki olaraq onun ikinci həbsinin hətta cinayət törədilmədən baş verməsi Amnesty İnternational təşkilatını hər iki həbsin Bəxtiyarın parlament seçkilərinə müxalifət namizədi kimi qatılması ilə bağlı olduğuna inandırdı.

Martın 2-də Bəxtiyar Martın 11-də hökumətin korrupsiyasına və zülmünə qarşı virtual etiraza çağıran qrupun həmtəsisçilərindən biri oldu. İştirakçılardan sadəcə olaraq davamiyyət barədə internetdə qeydiyyatdan keçmək rica edilirdi.

Bu internet səhifəsi ictimailəşən kimi Martın 4-də o, üçüncü dəfə Gəncədə həbs olundu və ona qarşı polisdə gündəlik olaraq qeydiyyatdan keçmək qaydasının pozulması ittihamı irəli sürüldü. Bəxtiyar deyir ki, həmin gün səhər saat 10-da o, polisdə qeydiyyatdan keçibmiş. Lakin verilən məlumata görə polis qeydiyyat kitabçasını itirdiyini bildirib.

Həmin gün keçirilən məhkəmə dinləməsində Bəxtiyarın məhkəməyə qədər iki ay müddətində həbsdə saxlanması barədə qərar qəbul olunub. Dinləmə zamanı o vəkilinə məktub ötürüb. Məktubda deyilirdi ki, saxlanma müddətində polis ona Facebook fəaliyyəti barədə suallar verib, ona yumruq vurulub, onu boğmağa çalışıblar və ağzı qanayanadək sifətini döşəməyə sıxıblar. Onu həmçinin zorlanma ilə hədələyiblər.

Bu günədək ona qarşı pis rəftar edildiyinə dair məsələ araşdırılmayıb. Bəxtiyar Hacıyevin vəkili dəfələrlə təhqiqat aparılması üçün müraciət etsə də, bundan izahat verilmədən imtina olunub.

Mayın 18-də Bəxtiyar hərbi xidmətdən yayınma ittihamı ilə iki il müddətinə azadlıqdan məhrum edilib. Bu, qanunun nəzərdə tutduğu maksimum cəza müddətidir.

Amnesty İnternational hesab edir ki, həbslərin üçü də əsassızdır. Birinci həbs Bəxtiyarın hərbi xidmətə çağırışdan parlament immuniteti olub. İkinci həbs isə ona qanuni çağırış vərəqi təqdim olunmazdan əvvəl baş verib. Üçüncü həbs üçün isə onun qeydiyyatdan keçmədiyinə dair sübutlar təqdim olunmayıb. Məhz buna görə də təşkilat onun məhkum edilməsini fərqli səslərin susdurulması cəhdi kimi qiymətləndirir. Amnesty İnternational Bəxtiyar Hacıyevi vicdan məhbuusu hesab edir və onun yalnız öz baxışlarını dinc şəkildə nümayiş etdirdiyinə məhkum edildiyinə inanır və onun qeyd-şərtsiz olaraq dərhal azad olunmasına çağırır.






*Soldan sağa*: İğtişaş polisi Bakıda Fəvvarələr Meydanında nümayiş zamanı etirazçını tutub saxlayır. Polis 12 Mart dinc nümayişi zamanı etirazçını sürüyür. Polis 12 Mart etirazı zamanı Fəvvarələr Meydanını mühasirəyə alır.

## 2011-Cİ İLİN MART VƏ APREL ETİRAZLARI

Martın əvvəllərində Bəxtiyar Hacıyev Facebookda Azərbaycanda demokratiya üçün 11 Mart 2011-ci il in internet etirazları üçün çağırışın həmtəşkilatçılarından biri olub. Bundan az sonra o, həbs edilib.

Bəxtiyarın həbsinə baxmayaraq 4200 fəal 2011-ci il 11 Mart virtual etirazına qoşuldu. Onlardan bir neçəsi 11 Martdan əvvəl həbs olunub, daha 43 nəfər isə Bakının mərkəzində real etiraza başlamaq istərkən həbs edilib. Azı 9 nəfər “polisə müqavimət göstərmək” ittihamı ilə məhkum edilib. Onlar 5 dəqiqədən də az sürən qapalı məhkəmə iclaslarında beş gündən səkkiz günədək azadlıqdan məhrum ediliblər.

Fransada yaşayan fəal Elnur Məcidli 2 Aprel 2011-ci il üçün “Azərbaycanda Qəzəb Günü”nün həmtəsisçilərindən biri olub. Bu Facebook tədbiri mənşəyi məlum olmayan spam hücumuna məruz qaldıqdan sonra Facebookun inzibatçısı tərəfindən silinib.

Aprelin 2-də etiraza çıxanlar qalxanlar, dəyənəklər və rezin güllələr atan tüfənglərlə silahlanmış iğtişaş polisi ilə üzləşiblər. Formada olan polislər meydanı əhatələmiş, mülki geyimlilər isə şüar söyləyənləri hədəfləyərək onların ağızlarını qapamış və polis mikroavtobuslarına sürümüşlər.

Bir neçə etirazçı həbs edilərkən yumruqlanmış və dəyənəklərlə döyülmüşdür. Polis etiraz aksiyasını dağıdarkən etirazdan əvvəl həbs olunmuş 17 təşkilatçıdan əlavə azı 150 nəfəri həbs etmişdir. On dörd nəfər 2011-ci ilin ortalarında mühakimə olunmuş və 18 aydan üç ilədək azadlıqdan məhrum edilmişlər. Amnesty İnternational onları yalnız ifadə və sərbəst toplaşma hüquqlarından istifadə etmək istədikləri üçün həbs edilmiş vicdan məhbusu hesab edir. Onların işi barədə müzakirə, təfərrüatları ilə *“Heç vaxt çiçəklənməyən bahar: Azərbaycanda azadlıqlar tapdanır” adlı hesabatda əksini tapıb. (Index:EUR 55/011/2011).*










*Yuxarıdan*: Elnur Məcidli Strasburqda, Avropa Parlamentində. Rüfət Hacıbəyli. Tural Abbaslı.

## ELNUR MƏCIDLI: ƏGƏR SƏNƏ ƏLLƏRI ÇATMASA, AILƏNƏ ÇATACAQ

2011-ci il Aprelin 1-də Fransada oturan 27 yaşlı fəal Elnur Məcidliyə qarşı qiyabi olaraq "hakimiyyətin zorakı yolla devrilməsi, və ya bu kimi hərəkətlərə çağırış edən materialların yayılması" ittihamı irəli sürülüb. Bu ittiham 12 il həbsxana cəzasını nəzərdə tutur. Məlumatlara görə Azərbaycan hakimiyyəti onun həbsi üçün beynəlxalq order üçün müraciət edib. Elnurun dediyinə görə İnterpol lazımi sübutların olmaması əsasında belə bir orderin verilməsindən imtina edib.

Elnur Facebook vasitəsilə Azərbaycanda Mart və Aprel etirazlarının həmtəşkilatçısı olub. Ona qarşı cinayət işinin açılmasındam az əvvəl ona Azərbaycan Baş Prokurorluğundan zəng edilib və bildirilib ki, o, ya fəaliyyətini dayandırmalı, ya da cinayət məsuliyyəti ilə üzləşməlidir. Ona həmçinin Azərbaycandan bir neçə təhdidedici telefon zəngləri edilib.

Lakin Elnurun Facebook fəaliyyəti göstərir ki, onun dövlətin zorakı üsullarla devrilməsi çağışlarına dair ittihamlar əsassızdır. Amnesty İnternational hesab edir ki, onun təqib edilməsinə səbəb onun ifadə və sərbəst toplaşma hüququndan istifadə etməsidir və məhz buna görə də ona qarşı ittihamlar ləğv edilməlidir.

Elnura əli çatmayan hakimiyyət onun fəaliyyətinə görə Azərbaycandakı ailəsini cəzalandırmaq yolunu seçib. Aprelin 1-də polis onun və əmisi oğlunun evlərinə reyd keçirilib. Evdə yalnız onun anasının olduğu bir vaxtda Azərbaycanın anti-terror birləşməsinin on dörd silahlı zabiti evə reyd keçirib.

Onun evinə keçirilən reyddən sonra formada olan polislər evin yanında keşik çəkərək ailəni iki ay müddətində müşahidə altında saxlayıblar.
Ailə şübhələnir ki, onlar hələ də mülki geyimlilərin nəzarəti altındadırlar.

Elnura qarşı cinayət işinin açılmasından sonra onun atası və qardaşı müvafiq olaraq dövlət mülkiyyəti olan gəmiçilik idarəsində və Maliyyə Nazirliyindəki işlərindən qovulublar.

Elnur Məcidli Amnesty İnternationala bildirib ki, "Mənim ailəmə və mənə hər gün təhdidlər edilir və mən psixoloji baxımdam artıq tükənmişəm".

## TURAL ABBASLI VƏ RÜFƏT HACIBƏYLI: BOYNU VURULMUŞ GƏNCLIK HƏRƏKATI

29 yaşlı Tural Abbaslı müxalif Musavat Partiyasının Gənclər Komitəsinin sədridir. O 2 Aprel etiraz aksiyası zamanı həbs edilib və Yasamal rayonundakı polis məntəqəsinə aparılıb. Onun vəkili Anar Qasımov Amnesty İnternationala bildirib ki, Tural 2 həbsdəykən döyülüb.

Tural Anar Qasımova bildirib ki, polis zabitləri onu yumruq, təpik və dəyənəklə döyüblər. Anar Qasımova Turalın həbsinin ilk iki günündə görüşmək imkanı yaradılmayıb, lakin nəhayət öz müştərisini görməyə nail olan vəkil onun gözlərinin ətrafında və əllərində qançırların olduğunu müşahidə edib.

Sentyabr ayında Tural "ictimai asayişi pozan hərəkətlərin təşkili və bu hərəkətlərdə iştirak" ittihamı ilə mühakimə edilib, lakin vəkilinin dediyinə görə partiya mənsubiyyətindən başqa ona qarşı heç bir sübut təqdim olunmayıb. Oktyabrın 3-də Tural 2 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

25 yaşlı Rüfət Hacıbəyli Musavat Partiyası Gənclər Komitəsinin sədr müavinidir və o da Aprelin 2-də həbs edilib. O daiddia olunduğuna görə polis maşınını təpiklədiyinə və maşına zərər vurduğuna görə "ictimai asayişi pozan hərəkətlərin təşkili və belə hərəkərlərdə iştirak" ittihamı ilə mühakimə edilib.
O, Oktyabrın 3-də 18 ay müddətinə azadlıqdan məhrum edilib.

Rüfətin vəkili Elçin Namazovun dediyinə görə məhkəmə dövlət televiziyasının



© IRFS

çəkiliş materiallarına istinad edib. Videosüjetdə Rüfət maşının yaxınlığında görünüb, lakin iddia edilən hadisə baş verməzdən əvvəl görüntü kəsilib. Polis zabitləri iddia edirlər ki, Rüfət maşını məhz görüntü bitdikdən sonra təpikləməyə başlayıb. Məhkəmə Rüfətin maşının yanından keçdiyini və başqa küçəyə buruldüğunu göstərən müstəqil videogörüntülərin nümayişinə heç bir izahat vermədən icazə verməyib.

Amnesty İnternational inanır ki, hər iki şəxs yalnız və yalnız özlərinin ifadə və sərbəst toplaşma azadlığından istifadə etdikləri üçün cəzalandırılıb.

## NƏTİCƏ

2009-cu ildən və Amnesty İnternationalın Azərbaycanda ifadə azadlığının vəziyyəti barədə son hesabatından bəri (Müstəqil jurnalistlər təzyiq altında(Index: EUR 55/004/2009)) vəziyyət daha da pisləşib. Bu gün Azərbaycanda heç bir tənqidi səsə dözümlülük göstərilmir. Tənqid siyasət, jurnalizm, satira fəaliyyəti, təhsil və hətta sosial şəbəkə sistemi sahəsində olmasından asılı olmayaraq cəzalandırılır.

Bu repressiyalara beynəlxalq icma çox qeyri-müəyyən reaksia göstərir. Bir çox ölkələr Azərbaycanın neft və qaz sənayesinə ağır yatırımlar etmişlər.

Hazırda belə görünür ki, Azərbaycan hökuməti belə ölkələrə bel bağlayır. Onların əksəriyyəti Avropa İttifaqının üzvü olmalarına baxmayaraq, insan haqlarının pozulmasına göz bağlayırlar. Nəticə etibarı ilə Azərbaycan hökuməti tənqidi çox da vecinə almır və Avropa İnsan Haqları Məhkəməsi kimi beynəlxalq insan haqları təşkilatlarına biganə münasibət nümayiş etdirir. Hakimiyyət bundan sonra da fərqli mövqeləri susdurmaq üçün neft və qaz gəlirlərindən qidalanan dövlət maşını ilə fərqli səsləri susdurmaq üçün istifadə edəcək. Xarici hökumətlər bu fərqli səsləri dəstəkləməyənədək Azərbaycan hökuməti bunu asanlıqla və cəzasızlıqla edəcəkdir.

Gənc blogerlər, jurnalistlər, siyasi fəallar, tələbələr və onların ailələri dövlət əleyhinə danışmağa cəsarət etməyin necə ağır nəticələrə səbəb ola biləcəyini yaxşı bilirlər. Buna baxmayaraq Azərbaycanlılar təməl insan haqlarından istifadə etməyin mümkün olmadığı bir ölkədə sakit yaşamaqdansa, bu risklərə getməyi üstün tuturlar. Beynəlxalq icma Azərbaycanlılara onların tamamilə qeyri-məqbul həyat şəraitini yaxşılaşdırmaq uğrunda mübarizələrində dəstək verməlidir.

*Yuxarıda*: 2 Aprel 2011-ci il tarixində Bakıda, Fəvvarələr Meydanında etiraz aksiyası

***"Düşünürəm ki, Azərbaycan gəncliyinin etiraz haqqı vardır və onlar etiraz etmək istəyirlərsə, bunu etməldirlər, istər internetdə olsun, və ya qeyri-internetdə, SMS vasitəsilə və ya küçələrdə"***

Adnan Hacızadə



© Amnesty International

*Yuxarıda*: İki gənc qadın 11 Mart 2011-ci ildə Bakıda keçirilən dinc etiraz zamanı "Azdlıq" qışqırdıqlarına görə polis tərəfindən tutulub saxlanmışlar.

*Üz Qabığı*: Polislər 2 Aprel 2011-ci ildə keçirilmiş nümayişdə etirazçını tutub saxlayır və ağzını qapayırlar. Bakı, Azərbaycan. © IRFS

## DƏRHAL HƏRƏKƏTƏ KEÇMƏLİ!

Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli ticari əlaqələr hazırda Avropa Komissiyasının nəzarətində olan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzərində qurulub.

Bizim Avropa Komissiyasının Prezidenti Xose Manuel Barrosoya ünvanlanmış e-petisiyamızı imzalayın:

bit.ly/free-azerbaijan

**Prezidenti**

- Azərbaycanla ticari danışıqlarda əməkdaşlıq edilərkən Avropa İttifaqının Azərbaycanda xalqın insan haqlarına hörmətin müdafiəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına fikir verməsinin təmin edilməsinə;

- Zərurri olduqda ayrı-ayrı fərdlərin hüquqlarının pozulması məsələsinin Avropa İttifaqının İnsan Haqları Müdafiəçiləri qaydalarına uyğun olaraq qaldırılmasına;

- Azərbaycan hakimiyyəti ilə bütün dialoqlarda Cabbar Savalanın, Bəxtiyar Hacıyevin, Tural Abbaslının və Rüfət Hacıbəylinin dərhal və qeyd-şərtsiz azadlığa buraxılmasına çağırış etməsinə çağırın.

AMNESTY INTERNATIONAL

**Amnesty International** 150-dən artıq ölkə və ərazidə insan haqlarının kobud şəkildə pozulmasına qarşı mübarizə kampaniyası aparan 3 milyondan artıq tərəfdarın, üzvün və fəalların qlobal hərəkatıdır.

Bizim dünyagörüşümüz İnsan Haqlarının Ümumi Bəyannaməsində və digər beynəlxalq insan haqları standartlarında əks olunmuş hüquqlardan hər bir şəxsə pay düşməsini ehtiva edir.

Biz hər hansı hökümətdən, siyasi ideologiyadan, iqtisadi maraq və dindən müstəqillik və əsas etibarilə üzvlüyümüz və ictimai ianələr hesabına maliyyələşirik.

Indeks: EUR 55/010/2011
Azerbaijani

Oktyabr 2011

Amnesty International
International Secretariat
Peter Benenson House
1 Easton Street
London WC1X 0DW
United Kingdom

amnesty. org